# KRVİ

(KƏSKIN RESPIRATOR VIRUS INFEKSIYASI)

**KRVİ (kəskin respirator virus infeksiyası) və ya KRX (kəskin respirator xəstəlik) - uşaqlar arasında ən geniş yayılmış xəstəlikdir. KRVİ-nin törədiciləri - çoxsaylı viruslardır. Onlar mürəkkəb struktura malik və həddən artıq müxtəlif növlərə malik oldugundan, insan orqanizmi bu viruslara qarşı immunitet yarada bilmir.**




KRVİ **öz-özlüyündə o qədər də təhlükəli deyil. Qorxulu olan onun fəsadlarıdır (bronxit, sətəlcəm, otit, angina və s.). Ona görə də uşaq KRVİ-yə tutulubsa, bundan qorxmayın, sadəcə lazım olan tədbiri görün. Çünki bütün uşaqlar vaxtaşırı belə infeksiyalara yoluxurlar. KRVİ hava-**damcı (öskürək, asqırmaq, xəstənin istifadə etdiyi qab-acaq və digər əşyalarla) vasitəsi ilə keçir. Adətən, **KRVİ tənəffüs yollarını zədələyir. Lakin elə hallar da olur ki, (son vaxtlar daha çox olmaqla) xəstəliyin törədicisi olan virus mədə-bağırsaq sisteminin selikli qişasını zədələyir. Bu zaman qusma, ishal, qarında ağrı kimi əlamətlər əmələ gəlir.**




**Əgər uşağın bədən hərarəti çox yüksək deyilsə (38,5$^0$C–dək), onu yatağa uzatmaq mütləq deyil. Hər gün otaqda nəm əsgi ilə təmizlik işləri aparılmalıdır. Bu, xəstəliyin törədicisi olan viruslarla mübarizədə vacib hesab olunur.**

**Qida kobud, kəskin və ədviyyatlı olmamalıdır. Uşağı az-az, tez-tez və imkan daxilində, onun xoşladığı qidalarla yedizdirmək lazımdır. Hər bir ana uşağında KRVİ olduğunu asanlıqla müəyyən edə bilər. Lakin, həkim məsləhətindən imtina edərək uşağı müstəqil şəkildə müalicə etmək, ona müxtəlif dərmanlar (xüsusilə, antibiotiklər) vermək olmaz. Yadda saxlayın ki, bir çox digər təhlükəli xəstəliklərin əlamətləri də KRVİ simptomları ilə oxşar olur!**

**Bilmək lazımdır**
**istənilən xəstəlik zamanı bədən hərarətinin yüksəlməsi - immun sistemin təbii reaksiyasıdır. Orqanizm bu yolla infeksiya ilə mübarizə aparır. Bu səbəbdən də qızdırma salan dərmanları yalnız hərarət 38,5$^0$C-dən yuxarı qalxdıqda vermək lazımdır.**




**Adətən, uşaqlar yüksək hərarəti yüngül keçirirlər. Ona görə də başlanğıcda dərmanlardan istifadə etmədən fiziki üsullarla hərarəti salmağa çalışmaq lazımdır.**
**Qızdırma salan üsullar da effekt verməzsə, həkim çağırmaq lazımdır, o xüsusi qızdırma salan dərmanlardan istifadə edərək yüksələn hərarəti aşağı sala bilər.**

## Simptomlar:

Xəstəlik hərarətin qalxması ilə başlayır, uşaq baş ağrısından, qol və ayaq əzələlərində ağrılardan şikayət edir, sonra isə asqırmaq, öskürək, zökəm başlayır. Bütün viruslar içində ən təhlükəlisi - qrip virusudur. Onun tez-tez ağır fəsadları olur.

KRVİ çox hallarda öskürək və zökəmlə müşaiyət olunur. Adətən, KRVİ başladığı gündən etibarən 7-10 gündən sonra keçib gedir.
KRVİ üçün yuxarı tənəffüs yolları (burun, udlaq, qırtlaq), həmçinin qulaqlar (otit) və gözlərin (konyuktivit) zədələnməsi xarakterik əlamətlər sayılır.

Faringit zamanı boğazda (udlaq) guruluq, qaşınma, quru öskürək, udma zamanı ağrılar olur. Laringit (qırtlağın zədələnməsi) zamanı səs batır, nəfəsalma prosesi çətinləşir (qırtlağın iltihabi şişkinliyi nəticəsində).

**Uşaqda nəfəsalmanın çətinləşdiyinin ilk əlamətləri görünən kimi həkim çağırmaq məsləhətdir**



**Özünüzü və uşaqlarınızı qoruyun və sağlam olun!**

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Sosial Gigiyena Monitorinqi şöbəsi
Tel:(012)422-08-23

# DİQQƏT



# KRVİ

# Kəskin respirator virus infeksiyası